**Sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahəsində rüsumların və ödənişlərin məbləği və ödənilməsi Qaydasının təsdiq edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikası Prezidentinin "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 avqust tarixli, 749 nömrəli və "Patent haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 avqust tarixli, 755 nömrəli Fərmanlarının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahəsində rüsumların və ödənişlərin məbləği və ödənilməsi Qadası" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasında ixtiraların, faydalı modellərin və sənaye nümunələrinin patentlənməsi, əmtəə nişanlarının və xidmət nişanlarının qeydiyyata alınması və mühafizə sənədlərinin qüvvədə saxlanılması üçün rüsum alınması Qaydaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 7 iyun tarixli, 286 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar 2000-ci il mayın 1-dən tarixdən qüvvəyə minir.

Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ

Bakı şəhəri, 6 mart 2000-ci il
№ 37

Azərbaycan Respublikası Nazirlər Kabinetinin

2000-ci il 6 mart tarixli, 37 nömrəli qərarı ilə

TƏSDİQ EDİLMİŞDİR

**Sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahəsində**

**rüsumların və ödənişlərin məbləği və ödənilməsi**

**QAYDASI**

1.Ümumi müddəalar

1.1. Bu Qayda «Patent haqqında», «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» Azərbaycan Respublikası qanunlarına, Azərbaycan Respublikasının digər qanunvericilik

aktlarına uyğun olaraq, Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri, xarici hüquqi və fiziki şəxslər üçün sənaye mülkiyyəti obyektlərinin mühafizəsi sahəsində rüsumların və ödənişlərin məbləği və ödənilməsi qaydasını müəyyən edir.

2.Rüsumların və ödənİşlərİn ödənİlmə qaydası

2.1. Rüsumlar sənaye mülkiyyəti obyektləri barəsində iddia sənədinə, sənaye mülkiyyəti obyektinin hər bir mühafizə sənədinə, sənaye mülkiyyətinin mühafizəsi sahəsində hər bir hüquqi əhəmiyyətli işlərə görə alınır.

Ödənişlər patent müvəkkillərinin attestasiyası, qeydiyyatı, şəhadətnamələrin verilməsi, onlara dair məlumatların dərci üçün alınır.

Bu Qaydanın 1, 2, 3, 4 nömrəli əlavələrində göstərilən rüsumlar və ödənişlər, müəyyən edilmiş müddət ərzində və müəyyən olunmuş məbləğdə ödənilir. Müəyyən edilmiş müddətdə, məbləğdə və qaydada rüsum və ödəniş ödənilmədikdə, iddia sənədi verilməmiş və ya hüquqi əhəmiyyətli iş yerinə yetirilməmiş sayılır və bu barədə iddiaçıya (patent sahibinə, nişanın sahibinə) bildiriş göndərilir.

Rüsumların və ödənişlərin müəyyən olunan müddətdən əvvəl ödənilməsinə görə iddiaçıya heç bir güzəşt olunmur.

Hər bir başa çatmamış ay üçün ödənilən rüsumun və ödənişin məbləği tam bir aya görə ödənilən rüsumun məbləğinə bərabər tutulur.

Ödənilmiş rüsum müəyyən edilmiş məbləğdən az olduqda iddiaçıya müvafiq bildiriş göndərilir. İddiaçı bildirişi aldığı tarixdən bir ay müddətində rüsumun qalıq hissəsinin ödənildiyini təsdiq edən sənədi təqdim etməlidir.

2.2. İxtira, faydalı model, sənaye nümunəsi barəsində iddia sənədinə görə rüsumun ödənildiyini təsdiq edən sənəd iddia sənədi ilə birlikdə təqdim olunur.

Çoxbəndli düsturdan ibarət olan ixtira və faydalı model, yaxud bir neçə obyektdən ibarət olan sənaye nümunəsi üzrə iddia sənədinin verilməsinə görə ödənilmiş rüsumun məbləği müəyyən edilən məbləğdən az olduqda və həmin fərq iddiaçı tərəfindən ödənilmədikdə, rüsum iddiaçının seçdiyi bəndlərə və ya obyektlərə (rüsumun məbləği kifayət etdikdə) şamil edilir. İddiaçı tərəfindən bu cür seçmə aparılmadıqda, iddia obyektinin birinci bəndindən (birinci obyektdən) başlayaraq, rüsumun kifayət etdiyi sayda bəndlər (obyektlər) üzrə ekspertiza aparılır.

Siniflərin sayı üçdən çox olan əmtəə nişanları və coğrafi göstəricilər barədə iddia sənədinin verilməsi və ekspertizası üçün rüsumun qalıq məbləği müəyyən edilən məbləğdən az olduqda və müəyyən edilmiş rüsumun qalıq hissəsi iddiaçı tərəfindən vaxtında ödənilmədikdə, iddia sənədində göstərilən ilk sinifdən başlayaraq, rüsumun kifayət etdiyi sayda siniflər üzrə ekspertiza aparılır.

2.3. İddia obyektinin ilkin iddia sənədi bir neçə iddia obyektinə bölünürsə, onların hər biri müstəqil şəkildə ayrıca iddia sənədi kimi verilə bilər. Bu zaman hər bir ayrılmış iddia obyekti üzrə ödənilən rüsum, müstəqil iddia sənədinin verilməsi üçün müəyyən edilən rüsuma bərabər tutulur.

2.4. Əmtəə nişanının və coğrafi göstəricinin qeydə alınması barəsində verilən ərizəyə qoşulan sənədlərin, o cümlədən iddia sənədinin qeydə alınması üçün rüsumun ödənildiyini təsdiqləyən

sənədin təqdim olunması, «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə uyğun yerinə yetirilir.

2.5. İddiaçı ekspertizanın sorğusuna cavabvermə müddətini uzatmaq üçün vəsatət verdiyi halda, müəyyən edilmiş məbləğdə əlavə rüsum ödəməlidir.

İddiaçı müddətin üzürlü səbəbdən ötürüldüyünü təsdiqləyən sənəd və vəsatət verərsə, ötürülən müddətin bərpası üçün müvafiq rüsum ödəməlidir.

2.6. İlkin ekspertizada müsbət rəy verilən iddia sənədində, iddiaçının təşəbbüsü ilə düzəlişlərin və dəyişikliklərin aparılması barədə vəsatət verildikdə, iddiaçı vəsatətlə birlikdə müəyyən edilmiş rüsumun ödənildiyini təsdiq edən sənədi də təqdim etməlidir.

2.7. DETK-ya Avrasiya iddia sənədi təqdim olunduqda, iddia sənədinin «Avrasiya patent konvensiyasının patent təlimatı»nın formal əlamətlərinə uyğunluğunu yoxlamaq üçün müvafiq rüsum alınır. Avrasiya Patent Təşkilatına sənədlərin göndərilmə xərci iddiaçı tərəfindən ödənilir. İddiaçı Avrasiya patenti almaq üçün rüsumu Avrasiya Patent Təşkilatının rüsumlar haqqında Əsasnaməsinə uyğun olaraq həmin təşkilata ödəyir.

2.8. Qanunvericiliklə nəzərdə tutulmuş hallarda Apellyasiya komissiyasına müraciət edildikdə, müəyyən edilmiş məbləğdə rüsum ödənildiyini təsdiq edən sənəd ərizəyə əlavə olunur.

2.9. Keçmiş SSRİ-nin ixtiraya görə mühafizə sənədi əsasında Azərbaycan Respublikasının ixtiraya görə patentinin verilməsi üçün iddiaçı 1 nömrəli əlavənin 13a) sırasında göstərilən məbləğdə rüsum ödəməlidir

2.10. Patent sahibi patenti qüvvədə saxlamaq üçün ilk rüsumu ixtira, faydalı model və sənaye nümunəsinə dair iddia sənədinin verildiyi tarixdən etibarən onların qüvvədə olmasının 3-cü ilindən başlayaraq ödəyir.

Əmtəə nişanı və coğrafi göstəricinin birinci on il ərzində qüvvədə olmasına görə ödənilən rüsumun məbləği onların qeydə alınması, şəhadətnamənin verilməsi və onun barəsində məlumatların dərci üçün ödənilən rüsumun tərkibinə daxildir.

2.11. Patentin hər növbəti ildə qüvvədə qalması, əmtəə nişanına və coğrafi göstəriciyə aid şəhadətnamənin qüvvədə olma müddətinin uzadılması üçün rüsumlar onların qüvvədə olduğu müddətin başa çatmasına qalan 2 ay müddət ərzində ödənilməlidir.

Göstərilən müddət, əlavə rüsum ödəmək şərti ilə mühafizə sənədinin qüvvədən düşdüyü gündən sonra əlavə 6 ay uzadıla bilər.

2.12. Azərbaycan Respublikasının patenti keçmiş SSRİ-nin mühafizə sənədləri əsasında verildikdə, rüsum, ixtira barədə ilk iddia sənədinin verildiyi tarixdən hesablanmaqla cari il üzrə ödənilir.

2.13. Patent müvəkkilliyinə namizədlərin attestasiyasına görə ödənişin ödənilməsini təsdiq edən sənəd DETK-ya attestasiya sənədi və ərizə ilə birlikdə təqdim edilir.

Patent müvəkkilinin qeydiyyatı, şəhadətnamənin verilməsi və bu barədə məlumatların dərci üçün ödənişlər, Attestasiya Komissiyasının patent müvəkkili haqqında qərarı qəbul etdiyi gündən bir ay ərzində ödənilir.

2.14. Rüsum və ödəniş nağd və ya köçürmə yolu ilə ödənilir.

2.15. Rüsumun və ödənişin ödənilməsini təsdiq edən sənəd tədiyəni qəbul edən idarənin qəbzidir (nağd ödənildikdə) və ya ödəyicinin hesabından köçürüldükdə isə köçürmə tapşırığıdır.

2.16. Rüsumun və ödənişin ödənildiyini təsdiq edən sənədə, rüsum və ya ödənişin şamil edildiyi hüquqi əhəmiyyətli işin adını (nömrəsini), mahiyyətini əks etdirən ərizə qoşulur.

Əks təqdirdə həmin sənəd etibarsız sayılır.

2.17. Rüsum və ödəniş müəyyən edilmiş məbləğdən artıq ödənildikdə onların artıq hissəsi, həmçinin rüsum və ödənişin şamil edildiyi hüquqi əhəmiyyətli iş yerinə yetirilmədikdə, rüsum və ödəniş Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun geri qaytarıla bilər.

Rüsum və ödəniş müəyyən edilmiş məbləğdən artıq ödənildikdə, onların artıq hissəsi, o cümlədən hüquqi əhəmiyyətli işə sərf olunmayan rüsumlar və ödənişlər iddiaçının (patent sahibinin) vəsatəti üzrə onun iddia sənədi (sənədləri), mühafizə sənədi (sənədləri) üzrə digər hüquqi əhəmiyyətli işlərə Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilən müddət ərzində istifadə oluna bilər.

Hüquqi əhəmiyyətli iş yerinə yetirilərsə, nəticəsindən asılı olmayaraq rüsum və ödəniş geri qaytarılmır.

İddiaçı sənaye mülkiyyəti obyekti barəsində verdiyi iddia sənədini geri götürdüyü halda, ödənilmiş rüsumlar geri qaytarılmır.

3.Rüsumların ödənİlməsİnə verİlən güzəştlər

3.1. İxtira, faydalı model və sənaye nümunəsinin iddiaçı və ya patent sahibi olan Azərbaycan Respublikasının fiziki şəxslərinə «Patent haqqında» Azərbaycan Respublikasının Qanununda və bu Qaydada müəyyən edilən rüsumların ödənilməsinə görə aşağıdakı güzəştlər verilir:

a) Azərbaycanın Milli qəhrəmanları, Böyük Vətən müharibəsi əlilləri və iştirakçıları və ya onlara bərabər tutulan şəxslər — 100 faiz rüsumu ödəməkdən azad olunurlar;

b) pensiyaçılar, aspirantlar (magistrlər), ali (əyani şöbə) və orta ixtisas məktəblərinin tələbələri, ümumtəhsil məktəblərinin şagirdləri, müddətli hərbi xidmətçilər (sıravi və serjantlar) — 50 faiz rüsumu ödəməkdən azad olunurlar;

c) ictimai təşkilatlar, qeyri-kommersiya təşkilatları və dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlar, iddia sənədi verilən tarixdən 5 il müddətində — 50 faiz rüsumu ödəməkdən azad olunurlar.

3.2. Bu Qaydanın 3.1 bəndində müəyyən edilən güzəştlər aşağıdakı hüquqi əhəmiyyətli işlərə şamil edilmir: 1 nömrəli əlavənin — 4, 7, 8, 11a), 13a), 13b), 13c), 15, 17, 18, 19, 20 sıraları.

3.3. Əgər müəlliflərdən, iddiaçılardan və ya patent sahiblərindən hər hansı biri uyğun kateqoriyaya aid edilmirsə, 3.1 bəndində müəyyən edilən güzəştlər tətbiq olunmur.

3.4. Fiziki və ya hüquqi şəxs rüsumun güzəştli ödənilməsi üçün vəsatətlə birlikdə güzəşt hüququna malik olduğunu təsdiqləyən müvafiq sənəd də təqdim etməlidir.

3.5. Nəzərdə tutulmuş güzəştlər aşağıdakı hallarda ləğv edilir:

patent sahibi hüquqi və ya fiziki şəxslərlə lisenziya müqaviləsi və ya patent hüququnun verilməsi barədə müqavilə bağladıqda;

iddiaçı iddia sənədi üzrə hüququn digər hüquqi və ya fiziki şəxsə verilməsi barədə müqavilə bağladıqda və ya iddia sənədi üzrə obyektdən istifadə hüququnu digər hüquqi və ya fiziki şəxsə verdikdə;

3.1 bəndində göstərilən kateqoriya dəyişdikdə.

3.6. «Əmtəə nişanlarının beynəlxalq qeydiyyatı haqqında» Madrid Sazişinə müvafiq olaraq, əmtəə nişanlarının beynəlxalq qeydiyyatına, o cümlədən onların qüvvədə qalma müddətinin uzadılmasına görə ödənilmiş rüsumlar Ümumdünya İntellektual Mülkiyyət Təşkilatının Beynəlxalq bürosu tərəfindən Azərbaycan Respublikasının Dövlət Elm və Texnika Komitəsinin hesabına köçürülür.

Bu Qaydanın 3 nömrəli əlavəsində göstərilən hüquqi əhəmiyyətli işlər üçün DETK-ya ödənilən ödənişlərin 100 faizi və rüsumun 50 faizi Dövlət büdcəsinə köçürülür, rüsumdan 50 faizi isə DETK-nın hesabında qalır.

Bu Qaydanın 1 nömrəli əlavəsinin 13a), b), c) sırasında göstərilən, 2 nömrəli əlavəsinin 1, 2, 3, 5, 6, 7, 9c), 9ç), 9d), 9e), 10, 11, 13, 14c), 14ç), 15, 16, 17, 18 sıralarında göstərilən hüquqi əhəmiyyətli işlər üçün yığılan rüsumlar dövlət rüsumudur və bütünlüklə Azərbaycan Respublikasının Dövlət büdcəsinə köçürülür.

Bu Qaydanın 1 və 2 nömrəli əlavələrinin digər sıralarında və 4 nömrəli əlavənin bütün sıralarında nəzərdə tutulan hüquqi əhəmiyyətli işlərin yerinə yetirilməsi üçün yığılan rüsumların 50 faizi Dövlət büdcəsinə köçürülür, 50 faizi isə rüsumu tutan təşkilatın (DETK-nın) sərəncamında qalır.

Bu Qaydanın 1, 2, 3, 4 nömrəli əlavələrində nəzərdə tutulmayan xidmətlərin göstərilməsi, o cümlədən işlərin təcili yerinə yetirilməsi üçün DETK ödənişlər müəyyən edir və ödənişlər alır.

DETK özünün hesablaşma hesabında qalan ödənişləri və rüsumları texniki və informasiya təminatına, kadr hazırlığına, patent sisteminin inkişafına, DETK-nın işçilərinin fəaliyyətinin stimullaşdırılmasına və patent sisteminin digər zəruri işlərinə istədikləri kimi istifadə etmək hüququna malikdirlər.

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 3. | Alan idarə kimi Beynəlxalq iddia sənədinin alınması və onun nüsxəsinin Beynəlxalq Büroya göndərilməsi üçün (göndərmə tarifinə və PCT-nin 14.1 təlimatına uyğun) 1 nömrəli əlavənin<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | "1a" bəndində göstərilmiş məbləğ +tarif*** | |
| 4. | Iddiaçının xahişi ilə bir ədəd milli iddia sənədinin və ya onun barəsində məlumatın (PCT təlimatının 17.1 (v) qaydası, ilkin sənəd) təsdiqlənmiş surətinin Beynəlxalq Büroya göndərilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 1 nömrəli əlavənin "1a" bəndində göstərilmiş məbləğ +tarif**** | |
| 5. | Əmtəə nişanının Beynəxalq qeydiyyatı üçün əmtəə nişanının sahibi tərəfindən ödənilən ödəniş (Madrid Sazişi, maddə 8 (1))<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 1 nömrəli əlavənin "1a" bəndində göstərilmiş məbləğ +tarif***** | |
| 6. | Beynəlxalq qeydiyyatın qüvvədə olma müddətinin uzadılması üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 1 nömrəli əlavənin "1a" bəndində göstərilmiş məbləğ +tarif****** | |

**Qeyd.** 4 nömrəli əlavənin 1,3,4,5,6-cı bəndlərində göstərilən "tarif"**, tarif***, tarif****, tarif*****, tarif******" işarələri, həmin sıralarda göstərilən materialların göndərmə tarifinə uyğun bilavasitə iddiaçı (maraqlı şəxs) tərəfindən ödənildiyini göstərir.

Patent Kooperasiyası haqqında müqaviləyə (PCT) uyğun ixtira, faydalı model barəsində iddia sənədinin milli fazaya daxil olması üçün ödənilən rüsumun məbləği ixtira, faydalı model barəsində iddia sənədinin verilməsi üçün müəyyən edilən məbləğə bərabər tutulur.

Avrasiya Patent Konvensiyasının iştirakçısı olan dövlətlərlə Azərbaycan Respublikası arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində ikitərəfli hökumətlərarası müqavilədə hüquqi və ya fiziki şəxslərin hüquqi bərabərliyinə əsas olan hallarda rüsumların ödənilməsi 4 nömrəli əlavənin 2-ci sırasının 3-cü sütununa uyğun olaraq yerinə yetirilir.

Sənaye mülkiyyəti obyektlərinin
mühafizəsi sahəsində rüsumların və
ödənişlərin məbləği və ödənilməsi Qaydasına
I NÖMRƏLİ ƏLAVƏ

**İXTİRA, FAYDALI MODEL VƏ SƏNAYE NÜMUNƏSİNİN PATENTLƏNMƏSİ ÜÇÜN RÜSUMLARIN MƏBLƏĞİ**

| Sıra №-si | Hüquqi əhəmiyyətli işlərin adı və onlar üçün ödəmə müddəti | Rüsumun məbləği | |
|---|---|---|---|
| | | Milli hüquqi və fiziki şəxslər üçün (xarici hüquqi və fiziki şəxslər üçün müəyyən edilən rüsumun məbləğinə nisbətən faizlə) | Xarici hüquqi və fiziki şəxslər üçün ABŞ dolları ilə (onun manat ekvivalenti ilə) |
| 1 | 2 | 3 | 4 |
| 1. | İxtira, faydalı model və sənaye nümunəsinə iddia sənədinin verilməsi üçün (iddia sənədinin ilkin ekspertizası və ekspertizası daxil olmaqla): | | |
| | a) bir ixtira, bir faydalı model və bir sənaye nümunəsi üçün | 15 | 100 |
| | b) əlavə olaraq, çoxbəndli düsturun 1-dən artıq hər asılı olmayan bəndi üçün | 20 | 50 |
| | c) əlavə olaraq çoxbəndli düsturun 5-dən artıq hər asılı olan bəndi üçün | 50 | 20 |
| | ç) sənaye nümunəsinin 10-dan artıq hər əlavə sənaye nümunəsi üçün | 50 | 10 |
| | e) iddia sənədinin mətninin 30-dan artıq hər səhifəsi üçün | 75 | 2 |
| | Rüsumun ödənildiyini təsdiqləyən sənəd (bundan sonra-ödəmə sənədi) iddia sənədinə qoşulur. | | |
| 2. | İddia sənədi üzrə ilkinliyin xahiş edilməsi üçün (bir ədəd ilkinlik üçün) Ödəmə sənədi ilkinlik istənildiyi tarixdən 2 ay müddətində təqdim edilir. | 20 | 50 |
| 3. | İddia sənədinin verildiyi tarixdən 1 ay keçdikdən sonra iddia sənədi materiallarında düzəliş və əlavələrin aparılması üçün Ödəmə sənədi düzəliş və əlavələr aparılması üçün ərizə ilə birlikdə təqdim edilir. | 40 | 25 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 4 | Ekspertizanın sorğusuna cavabın verilmə müddətinin uzadılması üçün: 6 aydan artıq olmamaq şərti ilə, hər 1 ay üçün<br>Ödəmə sənədi müddətin uzadılması barədə vəsatətlə birlikdə təqdim edilir. | 50 | 10 |
| 5. | İddia sənədinə dair məlumatın müəyyən edilmiş müddətdən tez dərci üçün<br>Ödəmə sənədi iddiaçının vəsatəti ilə birlikdə təqdim edilir. | 40 | 45 |
| 6. | İddia sənədi barəsində məlumatın dərci üçün<br>Ödəmə sənədi dərc olunma barədə qərar alındığı tarixdən 2 ay ərzində təqdim edilir. | 40 | 30 |
| 7. | Vəsatət əsasında ixtira, faydalı model və sənaye nümunəsi barəsində məlumat axtarışı aparılması üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | "1.a" bəndində göstərilmiş məbləğ+tarif* | |
| 8. | Vəsatət əsasında ixtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədinin mahiyyətcə ekspertizasının aparılması:<br>a)bir ədəd ixtira üçün<br>b)bir ədəd faydalı model üçün<br>c)bir ədəd sənaye nümunəsi üçün<br>ç)əlavə olaraq, çoxbəndli düsturun 1-dən artıq hər asılı olmayan bəndi üçün<br>d)əlavə olaraq, çoxbəndli düsturun 5-dən artıq hər asılı olan bəndi üçün<br>e)sənaye nümunəsinin 10-dan artıq hər əlavə sənaye nümunəsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | <br>50<br>50<br>50<br>50<br>50<br>50 | <br>150<br>100<br>100<br>80<br>20<br>20 |
| 9. | İxtira barəsində iddia sənədinin faydalı model barəsində iddia sənədinə çevrilməsi üçün<br>Ödəmə sənədi ərizə ilə birlikdə təqdim olunur. | 25 | 30 |
| 10. | Faydalı model barəsində iddia sənədinin ixtira barəsində iddia sənədinə çevrilməsi üçün<br>Ödəmə sənədi ərizə ilə birlikdə təqdim olunur. | 20 | 50 |

*1 nömrəli əlavənin 7-ci bəndində göstərilən "tarif"* işarəsi Beynəlxalq axtarış mərkəzinin tarifini və sənədlərin göndərilməsi üçün ödəmələrin bilavasitə iddiaçı və ya maraqlı şəxs tərəfindən ödənildiyini göstərir.

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 11. | Apellyasiya komissiyasına etirazla müraciət edilməsi:<br>a)ixtira, faydalı model və sənaye nümunəsinə patentin verilməsindən imtina qərarına qarşı<br>b)ixtira, faydalı model və sənaye nümunəsi barəsində dərc olunmuş iddia sənədinə qarşı<br>c)ixtira, faydalı model və sənaye nümunəsinə patentin verilməsinə qarşı<br>Ödəmə sənədi etirazla birlikdə təqdim olunur. | 20<br><br>50<br><br>30 | 100<br><br>20<br><br>150 |
| 12. | Ötürülmüş müddətlərin bərpası:<br>a)patent verilməsindən imtina qərarı barəsində iddiaçı tərəfindən Apellyasiya komissiyasına etirazla müraciət edilməsi üçün<br>b)dərc olunmuş iddia sənədi üzrə daxil olan etirazla bağlı iddiaçının Apellyasiya komissiyasına cavab verməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50<br><br>50 | 50<br><br>60 |
| 13. | Sənaye mülkiyyəti obyektinin qeydiyyatı, patentin verilməsi və dərc olunması ilə bağlı:<br>a)ixtira üçün<br>b)faydalı model üçün<br>c)sənaye nümunəsi üçün<br>ç)patentə məxsus təsvirin düsturla birlikdə 30-dan artıq hər səhifəsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 10<br>10<br>10<br>50 | 150<br>100<br>100<br>2 |
| 14. | Dərc olunduqdan sonra iddia sənədinin materialları ilə tanış olmaq üçün<br>Ödəmə sənədi ərizə ilə birlikdə təqdim olunur. | 50 | 30 |
| 15. | Patentin dublikatının verilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 30 | 20 |
| 16. | Verilmiş patentdə dəyişikliklər edilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50 | 30 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 17. | Sənaye mülkiyyəti obyektləri ilə bağlı hüquqların verilməsi barəsində müqavilələrin qeydiyyata alınması üçün: | | |
| | a)bir ədəd ixtira, bir ədəd faydalı model və bir ədəd sənaye nümunəsinə dair iddia sənədi üzrə, ayrılıqda hər biri üçün | 20 | 100 |
| | b)bir ədəd ixtira patenti, bir ədəd faydalı model patenti və bir ədəd sənaye nümunəsi patenti üzrə, ayrılıqda hər biri üçün | 20 | 150 |
| | c)ixtira, faydalı model, sənaye nümunəsinə görə bir neçə iddia sənədi üçün (1-dən artıq hər iddia sənədi üçün) | 25 | 60 |
| | ç)ixtira, faydalı model və sənaye nümunəsinin bir neçə patenti üçün (1-dən artıq hər patent üçün) | 20 | 100 |
| | Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | | |
| 18. | İxtira, faydalı model və sənaye nümunəsi obyektindən istifadə hüququnun verilməsi barədə müqavilənin qeydiyyata alınması üçün: | | |
| | a)bir iddia sənədi üçün | 20 | 100 |
| | b)bir neçə iddia sənədi üçün | 20 | 80 |
| | Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | | |
| 19. | Lisenziya müqavilələrinin qeydiyyata alınması: | | |
| | a)ixtira, faydalı model və sənaye nümunəsinin hər birinin ayrılıqda bir ədəd patenti üçün | 25 | 150 |
| | b)ixtira, faydalı model və sənaye nümunəsinin hər birinin ayrılıqda bir neçə patenti üçün (1-dən artıq nəzərdə tutulan hər patent üçün) | 25 | 100 |
| | Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | | |
| 20. | İddia sənədi və ya patent üzrə hüquqların verilməsinə dair qeydiyyata alınmış müqavilələrdə və ya obyektin istifadəsi ilə bağlı qeydiyyata alınmış lisenziya müqavilələrində dəyişikliklərin edilməsi üçün | 50 | 50 |
| | Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | | |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 21. | İlkin istifadəçinin hüquqlarının tanınması məqsədi ilə onun iddiasına baxılması üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50 | 50 |
| 22. | İxtira patentinin qüvvədə saxlanması üçün | | |
| | 3-cü il üçün | 15 | 40 |
| | 4-cü il üçün | 15 | 60 |
| | 5-ci il üçün | 15 | 80 |
| | 6-cı il üçün | 15 | 100 |
| | 7-ci il üçün | 15 | 120 |
| | 8-ci il üçün | 15 | 140 |
| | 9-cu il üçün | 15 | 160 |
| | 10-cu il üçün | 15 | 200 |
| | 11-ci il üçün | 15 | 260 |
| | 12-ci il üçün | 15 | 260 |
| | 13-cü il üçün | 15 | 320 |
| | 14-cü il üçün | 15 | 320 |
| | 15-ci il üçün | 15 | 380 |
| | 16-cı il üçün | 15 | 380 |
| | 17-ci il üçün | 15 | 440 |
| | 18-ci il üçün | 15 | 440 |
| | 19-cu il üçün | 15 | 500 |
| | 20-ci il üçün | 15 | 500 |
| | Ödəmə sənədi ərizə ilə birlikdə təqdim olunur. | | |
| 23. | Faydalı model patentinin qüvvədə saxlanması üçün | | |
| | 3-cü il üçün | 15 | 40 |
| | 4-cü il üçün | 15 | 60 |
| | 5-ci il üçün | 15 | 80 |
| | 6-cı il üçün | 15 | 100 |
| | 7-ci il üçün | 15 | 120 |
| | 8-ci il üçün | 15 | 140 |
| | 9-cu il üçün | 15 | 160 |
| | 10-cu il üçün | 15 | 200 |
| | Ödəmə sənədi ərizə ilə birlikdə təqdim olunur. | | |
| 24. | Sənaye nümunəsi patentinin qüvvədə saxlanması üçün | | |
| | 3-cü il üçün | 15 | 40 |
| | 4-cü il üçün | 15 | 60 |
| | 5-ci il üçün | 15 | 80 |
| | 6-cı il üçün | 15 | 100 |
| | 7-ci il üçün | 15 | 120 |
| | 8-ci il üçün | 15 | 140 |
| | 9-cu il üçün | 15 | 160 |
| | 10-cu il üçün | 15 | 200 |
| | Ödəmə sənədi ərizə ilə birlikdə təqdim olunur. | | |
| 25. | Patentin qüvvədə olma ilində illik rüsumun ödənilməsi ilə bağlı ötürülən müddətin 6 ay verilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50 | 50 |

Sənaye mülkiyyəti obyektlərinin
mühafizəsi sahəsində rüsumların və ödənişlərin
məbləği və ödənilməsi Qaydasına
2 NÖMRƏLİ ƏLAVƏ

## ƏMTƏƏ NİŞANI VƏ COĞRAFİ GÖSTƏRİCİNİ QEYDƏ ALMAQ ÜÇÜN RÜSUMLARIN MƏBLƏĞİ

| Sıra №-si | Hüquqi əhəmiyyətli işlərin adı və onlar üçün ödəmə müddəti | Rüsumun məbləği | |
|---|---|---|---|
| | | Milli hüquqi və fiziki şəxslər üçün (xarici hüquqi və fiziki şəxslər üçün müəyyən edilən rüsumun məbləğinə nisbətən faizlə) | Xarici hüquqi və fiziki şəxslər üçün ABŞ dolları ilə (onun manat ekvivalenti ilə) |
| 1 | 2 | 3 | 4 |
| 1. | Əmtəə nişanının və ya coğrafi göstəricinin qeydə alınması barəsində verilən iddia sənədi üçün (əmtəənin və ya göstərilən xidmətin 3-dən artıq olmayan sinifləri üçün) | 50 | 150 |
| | Onlardan: | | |
| | a)iddia sənədinin ekspertizası üçün | 50 | 120 |
| | b)iddia sənədinin ilkin ekspertizası üçün | 50 | 30 |
| | Ödəmə sənədi ərizə ilə birlikdə və ya ərizənin verildiyi tarixdən 2 ay ərzində təqdim olunur. | | |
| 2. | Əmtəənin və ya göstərilən xidmətin 3-dən artıq hər sinfi üçün<br>Ödəmə sənədi ərizə ilə birlikdə və ya ərizənin verildiyi tarixdən 2 ay ərzində təqdim olunur. | 50 | 40 |
| 3. | İddiaçının vəsatəti əsasında "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 12-ci hissəsinə uyğun olaraq, müddətin əlavə 2 ay uzadılması üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 100 | 20 |
| 4. | Əmtəə nişanına dair ilkinliyin istənilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50 | 50 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 5. | Əmtəə nişanına və coğrafi göstəriciyə dair verilmiş iddia sənədi materiallarında düzəlişlərin, dəqiqləşdirmələrin aparılması, əlavələrin edilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 70 | 20 |
| 6. | Ekspertizanın sorğusuna cavabın verilmə müddətinin uzadılması üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 100 | 25 |
| 7. | Əmtəə nişanına və coğrafi göstəriciyə dair iddia sənədinin ekspertizasının 1 ay ərzində aparılması üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50 | 100 |
| 8. | Ötürülmüş müddətin bərpası ilə bağlı, iddia sənədi barədə ekspertizanın qərarı ilə razı olmadıqda Apellyasiya komissiyasına etiraz verilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50 | 50 |
| 9. | Apellyasiya komissiyasına etirazın verilməsi:<br>a)əmtəə nişanına dair iddia sənədinə baxılma barədə ilkin ekspertizanın rədd qərarına qarşı<br>b)coğrafi göstəriciyə dair iddia sənədinə baxılma barədə ilkin ekspertizanın rədd qərarına qarşı<br>c)əmtəə nişanına dair iddia sənədi barəsində ekspertizanın qərarına qarşı<br>ç)coğrafi göstəriciyə dair iddia sənədi barəsində ekspertizanın qərarına qarşı<br>d)qeydə alınmış əmtəə nişanına qarşı<br>e)qeydə alınmış coğrafi göstəriciyə qarşı<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50<br>50<br>50<br>50<br>50<br>50 | 50<br>50<br>150<br>100<br>200<br>150 |
| 10. | Qeydə alınması, məlumatın dərci və şəhadətnamənin verilməsi üçün:<br>a)əmtəə nişanı üçün<br>b)coğrafi göstərici üçün<br>c)kollektiv nişan üçün<br>Ödəmə sənədi bildiriş alındığı gündən 2 ay ərzində təqdim olunur. | 25<br>25<br>25 | 200<br>100<br>250 |
| 11. | Reyestrdə və şəhadətnamədə qeydiyyatla bağlı məlumatlarda dəyişikliklər edilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50 | 70 |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 12. | Əmtəə nişanı və coğrafi göstəriciyə dair şəhadətnamələrin dublikatının verilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50 | 30 |
| 13. | Reyestr məlumatlarından çıxarış verilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50 | 30 |
| 14. | Əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin qeydiyyatı üçün:<br>a)iddia sənədi üzrə bir ədəd əmtəə nişanı üçün<br>b)iddia sənədləri üzrə bir neçə əmtəə nişanı üçün (1-dən artıq hər əmtəə nişanı üçün)<br>c)qeydə alınmış bir ədəd əmtəə nişanı üçün<br>ç)qeydə alınmış bir neçə əmtəə nişanları üçün (1-dən artıq hər əmtəə nişanı üçün)<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50<br>50<br>50<br>50 | 100<br>60<br>150<br>100 |
| 15. | Lisenziya müqavilələrinin qeydə alınması:<br>a)bir ədəd əmtəə nişanı üçün<br>b)bir neçə əmtəə nişanı üçün (1-dən artıq hər əmtəə nişanı üçün)<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50<br>50 | 200<br>150 |
| 16. | Əmtəə nişanı barəsində qeydə alınmış lisenziya müqavilələrində, hüquqların verilməsi barədə müqavilələrdə dəyişikliklərin aparılması üçün<br>Ödəmə sənədi ərizə ilə birlikdə təqdim olunur. | 50 | 50 |
| 17. | Qeydiyyatın qüvvədə olma müddəti qurtardıqdan sonra onun müddətinin uzadılması üçün:<br>a)əmtəə nişanı üçün<br>b)coğrafi göstərici üçün<br>c)kollektiv nişan üçün<br>Ödəmə sənədi qeydiyyatın qüvvədə olduğu ilin axırıncı 2 ayı ərzində vəsatətlə birlikdə təqdim olunur. | 50<br>50<br>50 | 250<br>100<br>350 |
| 18. | Qeydiyyatın qüvvədə olma müddəti keçdikdən sonra müddətin uzadılması üçün verilən 6 aya görə əlavə rüsum:<br>a)əmtəə nişanı üçün<br>b)coğrafi göstərici üçün<br>c)kollektiv nişan üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 50<br>50<br>50 | 50<br>50<br>50 |

Sənaye mülkiyyəti obyektlərinin
mühafizəsi sahəsində rüsumların və ödənişlərin
məbləği və ödənilməsi Qaydasına
3 NÖMRƏLİ ƏLAVƏ

## PATENT MÜVƏKKİLLƏRİNİ QEYDƏ ALMAQ ÜÇÜN ÖDƏNİŞLƏR VƏ RÜSUM

| Sıra №-si | Ödənişlərin və rüsumun adı və onlar üçün ödəmə müddəti | Ödənişin məbləği (min manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | Patent müvəkkillərinə namizədin patent müvəkkili kimi attestasiya olunması üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 80 |
| 2. | Patent müvəkkillərinin qeydiyyata alınması üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 20 |
| 3. | Patent müvəkkillərinə şəhadətnamə verilməsi üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 40 |
| 4. | Qeydiyyata alınmış patent müvəkkili barədə məlumatların dərc olunması üçün<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 20 |
| 5. | Attestasiya komissiyasının qərarına görə,<br>Apellyasiya komissiyasına etiraz vermək üçün rüsum<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur. | 80 |

Sənaye mülkiyyəti obyektlərinin
mühafizəsi sahəsində rüsumların
və ödənişlərin məbləği və ödənilməsi Qaydasına
4 NÖMRƏLİ ƏLAVƏ

## SƏNAYE MÜLKİYYƏTİ OBYEKTLƏRİ BARƏSİNDƏ BEYNƏLXALQ İDDİA SƏNƏDLƏRİ VƏ MÜHAFİZƏ SƏNƏDLƏRİ ÜZRƏ RÜSUMLARIN MƏBLƏĞİ

| Sıra №-si | Hüquqi əhəmiyyətli işlərin adı və onlar üçün ödəmə müddəti | Rüsumun məbləği | |
|---|---|---|---|
| | | Milli hüquqi və fiziki şəxslər üçün (xarici hüquqi və fiziki şəxslər üçün müəyyən edilən rüsumun məbləğinə nisbətən faizlə) | Xarici hüquqi və fiziki şəxslər üçün ABŞ dolları ilə (onun manat ekvivalenti ilə) |
| 1 | 2 | 3 | 4 |
| 1. | Avrasiyanın iddia sənədinin verilməsi üçün (formal əlamətlər üzrə ekspertizanın tələblərinə uyğunluğun yoxlanılması)<br>Ödəmə sənədi vəsatətlə birlikdə təqdim olunur | 1 nömrəli əlavənin "1a" bəndində göstərilmiş məbləğ +tarif** | |
| 2. | Azərbaycan Respublikasına aid Avrasiya patentlərinin qüvvədə saxlanması üçün: | | |
| | 3-cü il üçün | 30 | 40 |
| | 4-cü il üçün | 30 | 60 |
| | 5-ci il üçün | 30 | 80 |
| | 6-cı il üçün | 30 | 100 |
| | 7-ci il üçün | 30 | 120 |
| | 8-ci il üçün | 30 | 140 |
| | 9-cu il üçün | 30 | 160 |
| | 10-cu il üçün | 30 | 200 |
| | 11-ci il üçün | 30 | 260 |
| | 12-ci il üçün | 30 | 260 |
| | 13-cü il üçün | 30 | 320 |
| | 14-cü il üçün | 30 | 320 |
| | 15-ci il üçün | 30 | 380 |
| | 16-cı il üçün | 30 | 380 |
| | 17-ci il üçün | 30 | 440 |
| | 18-ci üçün | 30 | 440 |
| | 19-cu il üçün | 30 | 500 |
| | 20-ci il üçün | 30 | 500 |